**Nizami Məmmədzadə**

# Çələbilər

(poema)



Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyi

**Nizami Məmmədzadə**

# Çələbilər

(poema)

Tiflis-2015

Redaktor:
**Mahmud Hacıxəlilov,**
**filologiya üzrə fəlsəfə doktoru, professor**

Korrektor:
**Aysel Məmmədova**

Texniki redaktor:
**Otar Kikilaşvili**

ISBN 978-9941-0-7377-9

# Çələbilər qəbiristanlığı

Borçalının Dəmirçihasanlı bölgəsində Ləcbəddinlə Kosalı arasında vaxtilə tarixi ticarət məntəqəsi yerləşən Damğaçı düzündə bir müqəddəs ocağımız, ziyarət yerimiz var. Bu, müqəddəs ulularımız, ağır kişilərimiz uyuyan Çələbilər qəbiristanlığıdır. Burada torpağa möhkəm bağlı, qosqoca palıd misallı hər baş daşının ağır təmkinindən pozulmaz ulu qan yaddaşımız boy verir, qırmızı tufdan, ərəb, fars, türk-Azərbaycan dillərində süls, nəsx xətləriylə gözəl yazılar həkk olunmuş bu başdaşlarının hər biri yiyələri kimicə ağır-ağır duruşuyla, daş sükutuyla bizlərə sirli-mübhəm mətləblər soraqlayır. Bu məzarlıqda müqəddəslərimizin mühafizə edildikləri hərimlərdə (məqbərələrdə) uyuyanların əsas qismi belə aşkarlanıb;

* Dəmirçihasanlı camaatından Əhməd Sultan İsa bəy oğlu (vəfat ili hicri 1205-miladi1790),

* Əhməd Sultanın nəvəsi Vəli bəy İsa bəy oğlu (vəfat ili 1249-1933/34 ),

* Süleyman ağa Əhməd Sultan oğlu (vəfat ili 1273-1856/57),

* Vəli bəy İsa Sultan oğlu Səfa (vəfat ili 1273-1856/57).

Başqa səmtdəki hərimdə:

* Sultanlılar nəslindən Rzaqulu ağa Mustafa Sultan oğlu (Vəfat ili 1260-1843/44),

* Nəzərli camaatından Piri bəy Piri oğlu (vəfat ili 1273-1856/57).

Yuxarıdakı siyahıdan bunları açıqlayırıq ki, birincisi, bu qəbiristanlıq təxminən iki yüz il əvvəlindir, ikincisi burada dəfn olunanlar Dəmirçihasanlı, Sətli, Nəzərli camaatlarından, sultan nəslinin adamlarıdır.

Konkret desək, böyük hərimdə İsa bəy oğulları Əhməd Sultan, Məhəmməd Sətli Sultan, Əhməd Sultanın oğulları İsa bəy, Süleyman ağa, Vəli bəy, İsa bəyin oğlu Vəli bəy, başqa səmtdəki həriimdə Mustafa Sultanın oğulları və əzizləri dəfn ediliblər. (Sözgəlişi: on səkkizinci

yüziilin şirin təbli şairi Zabitin də qəbri həmən Çələbilər-Xaccaoğlu qəbiristanlığında olduğu gümanı var.)

Çələbilərdə köhnə ərəb yazılarının müəyyən qismini oxumuş Məşədixanım Nümətovanın, Ləcbəddin kənd mollası 90 yaşlı Abdulla Qədir oğlunun böyük savab işini dərin ehtiramla xatırlayaraq, molla Abdullanın: "Deyirəm, bəlkə bu məlumatı oxuyub, kimsə səsimizə səs ver," harayına qoşularaq, onların üzə çıxardıqları başdaşı epitafiyaları əsasında burada uyuyan şəxsiyyətlərimiz barədə tarixi qaynaqlardan bildiklərimizi şərh etmək istəyirik.

Əvvəlcə qeyd edək ki, on yeddinci yüzilin ortalarınadək bu səmtlərdə Borçalı-Loru xanlığı, Dəmirçihasanlı, Baydar sultanlıqları olub; əzəllər bu yörələrdə Çələbi adında obalarımız qeydə alınıb, belə ki, hələ 1677-ci ildə tarixi qaynaqlarda Borçalı-Baydar elatlarında Eyvaz Çələbili adı keçib, on səkkizinci yüzilin ilk çərəyinə aid şahzadə Vaxuştinin coğrafi xəritəsində, gürcü dilindəki "Dəsturüləməl" adlı sənəddə Alget çayı boyunda Çələbili obasının adı var və bu obada bir el (94 adam) yaşayıb; 1728-ci ildə osmanlıların tərtib elədikləri "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə Baydar nahiyyəsində iki Çələbili camaatının birində 19 ev, başqa səmtdəkində 104 ev qeyd olunub; 1869-cu ildə statistik bilgilərdə Ləcbəddin, Baş-Muğanlı, Gültəpəli, Kürtlər kəndlərinin qonşuluğundakı Çələbili-Yadigarlı və Çələbili-Tarxanlı kəndlərinin birincisində 16 ev və 73 nəfər əhali, ikincisində 8 ev və 40 nəfər əhali göstərilib; 1886-cı ilin əhalisayımına görə, Qaçağan camaatının Xancığazlı, Quşçu kəndləri arasındakı Çələbili-Yadigarlı kəndində 17 evdə 83 nəfər yaşayıb, onlar Cəfəri məzhəbilər, ailələrdən biri dövlət kəndlisi, qalanları müvəqqəti mükəlləfiyyətlilər olublar; 1896-cı ildə yenə Çələbili-Yadigarlıda 17 evdə əhali 112 nəfərə çatıbmış.

İndi görək, Çələbilərdəki şəxsiyyətlərimiz barədə tarix nə soraqlayır?

Onlar haqqında Gürcüstanın Mərkəzi Tarix Arxivində əhəmiyyətli materiallar var (fondlar 226, 1448, 1449).

İsa bəy Səfəvilərin Kartli valiliyində qoşun yübaşısı olub və o, Yüzbaşı tayfasının zatkökündə durur. "Müfəssəl dəftərə" görə, Temurçuhəsənli (Dəmirçihəsənli nahiyəsində) Yüzbaşı, Şərəfəddin, Kəpənəkçi, Pirbayram, İmirhəsənli, Nəzərli tayfaları cəmləşiblərmiş

və onlar arasında daha çox yığamatlı tayfa yüzbaşı tayfasıymış. Və bu tayfanın ulusları, dağınıq elləri, Arıxlı, Sətli, Qaramanlı, Qəmərli camaatları arasında Qaracıbaşı, Mustafa, Dügər, Əhməd, Çubuqlu, Həsən, Nuru bəy, Çəltikli, Süleyman, Molla Mehdi, Çopur Əhməd, Vəli ağa, Uruz, Duru oğlu qışlaqlarında dövran sürüblər. Məhəmməd Sətli barədə qaynaqlarda bəzi maraqlı biliklərə rast gəlirik. Gürcü salnaməçisi İace Barataşvili 1744-cü il haqqında söhbət açarkən belə vurğulayıb: “Qazax-Borçalı İsa Paşa, Qazaxda İsfanverdi Xan, Borçalı Sətli Məhəmməd Xan idi, o, böyük kişinin oğlu idi, ancaq Nadir şah onu dustaq etdi, Borçalı xanlığını əlindən aldı.” Bu da diqqəti çəkir ki, ustad aşığımız Hüseyn Saraclının düzüb-qoşduğu “Aşıq Qərib” dastanı variantında Sətli Məhəmməd Xan surəti yaradılıb, o, dastanda el ağsaqqalıdır, Qəriblə Şahsənəmin toyunu o çaldırır.

İsa bəy oğlu Əhməd Sultan uzun illər Dəmirçihasanlı sultanlığında sultan taxtında oturub. Sultan Əhmədin oğlu İsa bəy barədə bilgilər bizə gəlib çatıb. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarından (cild 6, hissə 2): “ 1819-cu ildə Abbas Mirzənin müvəkkili Xudadad bəy gəlib Qarağac yaylağında Dəmirçihasanlı İsa Sultana İrandan Qarapapaq Nağı bəy Borçalının hədiyyə göndərdiyi boz atı çatdırdı və İran hökmdarı adından vəd elədi ki, bütün Dəmirçihasanlı camaatını İrana qaçırsa, şahın xüsusi mərhəmətinə layiq görüləcək.”

Çələbi qəbiristanlığı, həqiqətən keşməkeşli tariximizin zəngin bir parçasıdır. Oradakı epitafiya yazıları daha ciddi, daha yaxşı oxunmalı, şərh olunmalıdır. Qaş-Muğanlı qəbiristanlığındakı Borçalı xanı Məhəmmdə Xanın, Borçalı qoşun sərdarı Kazım Xanın, Araplıda Borçalı vəkil Əmircan oğlu Hacının hərimlərinin, başqa yerlərdə görklü hərimlərin, qəbir daşlarının üzünü oxuyub aydınlaşdırmağa da beləcə qəlb yanğısıyla yanaşmalıyıq. Bu, ən əvvəl, qan yaddaşımızın gözünü açmaqdan, gələcək nəsillərə çatdırmaqdan ötrü gərəklidir. Buna görə də bu xeyirxah işi davam etdirmək hər birimizin müqəddəs vəzifəsidir.

**Şurəddin Məmmədli,**
**filologiya elmləri doktoru**

# Çələbilər

(poema)

*1728-ci ildə Osmanlıların tərtib etdiyi "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə Baydar nahiyəsində iki Çələbi kəndi qeydə alınıb. Çələbilər qəbiristanlığı barədə Gürcüstan Mərkəzi Arxivində əhəmiyyətli materiallar var. Məndə olan məlumata görə, Azərbaycanın bir neçə bölgəsində də Çələbi kəndi var.*

*Borçalıda mövcud olan Çələbli kəndinin adı digər kəndlər kimi 19-cu yüzilədək bütün tarixi qaynaqlarda çəkilib. Ancaq sonralar hələlik bizə məlum olmayan səbəblərə görə bu kənd xəritədən silinib.*

Salam, ey Damğaçı düzü! Xoş gördük!
Salam, heykəl kimi dayanan daşlar!
Salam, ey dünyanın sahibi Allah!
Sənə əyilibdir burdakı başlar!

Çələbilər elim, salam hər kəsə,
Kövrək duyğularım oyanıb bü gün!
Burda daşlar verib nəfəs-nəfəsə,
Canlı insanıdır bəşəriyyətin!

Sonsuz üfüqlərin buludu burda,
Torpağa su səpir, leysan tökülür.
Burda daşlar var ki, ata, uşaqlar –
Sanki yer altında bərkdən hönkürür.

Taleyin min hökmü burda yazılıb,
Burda xanlar yatır, burda bəy yatır.

Burda hər insana qəbir qazılıb,
Burda igid yatır, burda ər yatır!

Hər sözün bu yerdə qiyməti vardır,
Burda bütöv sözü qılınclar deyib.
Burda hər insanın mərd xasiyyəti,
Burda insanları ölümlər əyib.

Burda Borçalının ağası, xanı –
Burda ərənlərin sayı nə qədər?
Eh, indi onları axtaran hanı?
Əyib qamətini bu zalım qədər.

Burda nənəmin də nağılı bitib,
Burda min bayatı, burda min ağı!
Daşların rəngi də qırmızı olub,
Burda güllər açıb, bura Xan bağı!

Burda toy çalan yox, bəxşiş verən yox,
Bu yerdə zili-zil edən sazım yox.
Bu yerdə cıdıra çıxan cavanlar,
Mindiyi kəhərim, Göyüm, Bozum yox.

Kədərim göylərdən asılı qalıb,
Damğaçı düzünün halı pozulub.
Daşların yaşını bilən də yoxdur,
Alnıma tarixim belə yazılıb.

Bu yerdə sehirbaz olmaq istəyi,
Məni rahat qoymur, sinəmi deşir!
Allahım, sən mənə ilham bağışla,
Sinəmdə sözümü mükəmməl bişir!

Sözün də çiyliyi, quruluğu var,
Gərək ürək ola bir söz deməyə!
Dilimdən dualar əskik olmayıb –
Söylədim dilimlə baş əyə-əyə!

Çələbi sözünün min hikməti var,
Daşların duruşu sirli kitablar.
Mənim bu quruca daşlara bilin –
Sevgim var, hörmətim, məhəbbətim var.

Tarixin məqamı burda qırılıb,
Bu yerdə əsgərtək daşlar düzülüb.
Bu yerdə ümidlər sahibsiz qalıb,
Arzu pərən-pərən düşüb üzülüb!

Bu başdaşı, bu da mən,
Boylanıram hara, nədən?
Çürüyübdür igidlərim,
Fələk, sənə nələr deyim?

Gələn yoxdur, gedən yoxdur,
Boylanıram gəzən yoxdur,
Torpaq altda yatan çoxdur,
Ələk, sənə nələr deyim?

Ələndi hey düz adamlar,
Qeybət qırdıq biz adamlar,
Torpaq altda yüz adamlar,
Kələk, sənə nələr deyim?

Yel apardı, qalmadı heç,
Karvan gedir, başlandı köç,
Oğulsansa, sən indi qaç,
Dilək, sənə nələr deyim?

Səslə gedən Koroğlunu,
Dəmirçoğlu, Kürdoğlunu,
Çal ay tütək, gəz oğlunu,
Tütək, sənə nələr deyim?

Ələndik hey, bələndik hey,
Odlara biz qalandıq hey!
Doğru deyir, yallandıq hey!
Gedək, sənə nələr deyim?

Bu yerdə zamana baş əyib xanlar,
Burda vətən darda, torpaq dardadır.
İndi biz tarixə dönən daşlardan,
Bir fikir, bir ümid, bir sirr gəzirik –
Fəqət, o igidlər harda, hardadır?

Ey Vətən övladı, burdan sakit keç!
Daşların sükutu pozula bilər.
Burda bir quşun da uçmağı belə,
Başqa cür, başqa cür yozula bilər!
Pozular novrağı düzün, dünyanın,
Kimsə fikirini əyri qandırar.
Bircə söz lazımdır, bu yer üzünə,
Acı söz kibrittək eli yandırar.

Bir az səbr edin siz, tarix yazanlar,
Bir azdan bu daşlar oyanacaqlar.
Hər əmrə müntəzir bir əsgər kimi,
Bir qələm önündə dayanacaqlar.
Sənə baş əyirəm sözüm, qələmim,
Axtar sən, tap bu gün gəzdiyim sirri!
Burda bir küncdə dayanan daş da,
Xanların, bəylərin-igidin biri!
Bu yerdə vaxt olub bayraq asılıb,

Yolu İpək olub bir zaman elin.
Damğaçı düzündən karvanlar keçib,
Adı bəlli olub Çələbilərin.

Burda tarix yatır, Cələbi adlı,
Əhməd Sultan nəsli sollu, həm sağlı.
Məzarlıq başında duran bir daşın,
Sahibi Əhməd Sultan İsa bəy oğlu.

O yanda Məhəmməd Sətlidir yatan,
O sultan oğludur, sinəsi dağlı!
Bac verməz yağıya,bac verməz yada,
Düşmənə söz deyib qolları bağlı.

Məhəmməd Sətlini Nadir şah tutub,
Zindana salaraq, işgəncə verib.
O Sətli ki, bir vaxt Borçalı xanı –
Onun xanlığını el-oba görüb.

Xanlığı əlindən alınıb onun,
Nadir şah zəhminə urcah olub xan.
Məhəmməd Sətlinin adı tarixə
Yazılıb igittək Borçalımızdan.

Gürcü tarixçisi Barataşvili,
1744-də yazıbdır:
“Məhəmməd Sətlini zindana salan,
Nadir şah olub, həm qəbir qazıbdır.”
Məhəmməd xan gözəl, xeyirxah insan,
Qəriblə Şahsənəm toyunu edib.
O, igid, mərd olub yaranışından –
Mərd kimi ölümün önünə gedib.

Qorxmaz oğul olub Məhəmməd Sətli,
Ona xan kimi nə desən yaraşıb.
Vaxt olub düşmənin namərd sözünə -
Cavab verib, mərdi-meydan dolaşıb.

Silahı,sursatı özündə olub,
Qılıncı çəkəndə düşmən bayılıb.
Vuruşda gözündən ildırım çaxıb,
Nərəsi Damğaçı boyu yayılıb.

Keçməyib sərhəddən düşmən qoşunu,
Məhəmməd xan əmri çox sərt deyilib.
Bu yerdə düşmən də ona yalvarıb,
Bu yerdə düşmənin şahı döyülüb.

Düşmənlər ac qalıb, gücdən düşüblər,
Nadir şah yalvarıb Sultan qarıya.
Bir düyü aşını dadıblar onlar,
Borçalı mərd olub, ünə haraya!

Fəqət, namərdin bir meydanı var,
O zalım, qəddardır burda hər zaman.
Qaş-Muğanlı kəndində şah meydan qurub,
Qisas alıb o gün Məhəmməd xandan.

Torpaqlar yadların tapdağı olub,
Borçalı ayrılıb Azərbaycandan.
Neçə igid qalıb Damğaçı düzdə,
Keçiblər bir başdan, keçiblər candan.

Burda tarix yatır, burda ad yatır,
Kimsənin vecinə gəlməyir daşlar,

Burda kim yatır, bəlkə yad yatır?
Çalışmır, çalışmır alimtək başlar.

Bu düzə baxıram; türkün izi var,
Bu yerdə yan düşən daşlar ölür ah!
Hər daşda bir kədər, qəmli yazı var –
Nə üçün sən bizi yaratdın, Allah?!

Sinəmiz ağrılı, acılı müdam,
Müdam kədər, acı bizə rast gəlir.
Tarixin iziylə gedəndə adam,
Dünən başımıza gələni bilir.

Bu yerdə məzarlar, daşlar uçubdur,
Bu yerdə hər insan bir cürə ölüb.
Biri varlı olub, daşlar böyükdür,
Biri başdaşını yarıya bölüb.

Vəli bəyin uca məzarı uçub,
Sinəsi daş-qalaq, pozulub səfi!
Baxdım, sinəmdə bir od-alov qopdu,
Sıyrıldı qılınctək şütüdü əfi.

Bir zaman bu yerlər İpək yoluydu,
Bu yoldan dəvələr, atlar keçirdi.
Damğaçı düzündə nə desən vardı,
Babam da dəryazla taxıl biçirdi.

Damğaçı sözünü axtardım, tapdım,
Elə bu düzdəcə möhür vurublar.
İpək yolu burdan keçib uzağa,
Bu yerə gələnlər çadır qurublar.

Atların kişnərti səsi yayılb,
Bəylərin, xanların nərəsi gəlib.
İndi bu yerlərdə daşlar çoxalıb,
Qəbir baş daşları göyə yüksəlib.

Bu yerdə tuf daşı qızılı rəngdə,
Bərq vurur günəşin şüası burda.
Burda yatan igid tutur tüfəng də -
Sanki keşik çəkir o ulu yurda!

Donmuşam, halımı soruşan yoxdur,
Qələmim əlimdə titrəyib əsir.
Baxıram, o yanda duran qəbirə,
Bu yanda ucalan qəbirlər küsür.

Dolmuşam qapqara buludlar kimi,
Gözümün yaşını silən də yoxdur.
Gəzirəm, cahana deyəcək sözü –
Dünənki tarixi bilən də yoxdur.

Yollara boylandım bir gələn yoxdu,
Toz-torpaq aləmi bürüyüb yatıb.
Bir güllə deşiyi tapdım bir daşda,
Kimsə bu igidə bir güllə atıb.

Boylandım o daşa, sinəm alışdı,
O güllə tarixə bir nöqtə qoyub.
Düşündüm namərdin qoyduğu izi,
O namərd bir eli beləcə soyub.

Ehramın sahili qanla dolub, bax!
Bu dövran onlara namərd kəsilib.

Bir qaya altında, meşə döşündə,
Hər biri bir yerdə ölüb, asılıb.

Zaman vardı, illər vardı bu yerdə,
İsa bəy atına çatan yoxuydu.
Sanki Koroğluydu bir köhlən atı –
Çapırdı, yayından çıxan oxuydu!

Sultan nəslindən Rzaqulu ağa,
Boyu uca idi, qolu qüvvətli.
Bir qızı sevmişdi bulaq başında –
Beli sürahiydi, sinəsi ətli.

Qəlbində məhəbbət çağladı, coşdu,
Bir dəli nərənin qurbanı oldu.
Əlinə qılıncı alıb söz qoşdu,
O igid idi, bir gözəl qız aldı.

Fəqət, namərd əli dinc durammadı,
Bir kola gizlənib ona ox atdı.
Ah, min yağı onu hey vurammadı,
Namərdin atdığı ox ona batdı.

Bir qəbir üstünə bir sənəm gəldi,
Gözləri yaşlıydı, nəmli, kədərli.
Bir gözü ağlardı, biri quruydu,
Bayatı deyirdi qəmli, kədərli.

Dözmədi bir nakam igid ömrünə,
Özünə yer qazdı, ah gözəl burda.
İndi sanki iki baş daşı - əsgər,
Keşikçitək keşik çəkir bu yurda.

Burda Nazarlıdan igidlər yatır,
Burda Piri oğlu rahat uyuyur.
O dərdliydi, qəmli bir varlıq kimi,
Düşünürəm məni yalnız o duyur.

Dünyada kimsəyə baş əymədi o,
Piri bəy oğlutək məğrurdu Piri.
Nazarlı öyünün başbilənitək,
Damğaçı düzündə ev qurdu Piri.

Gedər-gəlməz dünya ona namərdtək,
Bir oyun yaşatdı, dözmədi Piri.
Allaha yalvarıb dil açmadı o,
Ölümdən, həyatdan bezmədi Piri.

Burda şimşək çaxdı, burda qar yağdı,
Hər fəsil bu yurda zalım oldu, ah!
Bir nəsil bax belə yox olub sanki,
Oxuyan yoxdu bu daşları Allah!

Bu qəbir daşları əyilib, uçub,
Tarixim ağlayır, tarixim hanı?
Bu kimin günahı, kimlərin suçu?
Silinib Rzaqulu bəy xanimanı.

Hər sinə daşında min kədər yatır,
Hər daşın öz adı, öz şəccərəsi.
Dirə qulağını yerin köksünə,
Eşit nalə, aman, gur nərə səsi!

Burda bir şairin qəbri çatlamış,
Burda şeir demiş şirin diliylə.

Burda Zabit adlı şair yaşarmış,
Yaşayıb, yaratmış doğma eliylə.

Hər sözü, söhbəti yadigar qalıb,
İndi də sevilir şair sözüylə!
Bu gün də şeirini sevir Borçalı,
Ucalıb yaddaşda elin gözüylə.

Əlimlə daşlara sığal çəkəndə,
Ruhlar mənə kaman oldu, saz oldu.
Damğaçı düzündə yeri əkəndə,
Çəmən çiçək açdı, qışım yaz oldu.

Burda daşlar dindi, süzdüm ətrafı,
Ruhum bədənimdən uçdu, nədəndir?
Mən burda unutdum kədəri, ahı -
Bu torpaq vətəndir, daşlar vətəndir!

Mən ruham, gəlmişəm qisas almağa,
Şahidim dağlardır, dərələr, bilin!
Damğaçı boyunca sıralanmışam,
İgid əsgəriyəm obanın, elin!

Ürəyimdə nəğmə adlı söz yazdım,
Hər baxış lal kimi bir sual oldu.
Qəbirdən-qəbirə keçəndə azdım,
Hər daşın duruşu bir məlal oldu.

Ürəyin dözümü daşa bənzəmiş,
Bir şair ömrünü necə izləmiş.
Heykəltək önümdə bir uca qəbir,
Sanki şair kimi yarı gözləmiş.

Çələbi elləri, oyanın bu gün,
Sizinlə görüşə Nizami gəlib,
Sinəsi doludur, sözlə-söhbətlə,
Sizlərə Allahdan rəhmət diləyib.

Nə olur torpağın köksündə, ya Rəbb?
Sözün son məkanı bax bura olub.
Çələbi dünyası, igidlər yurdu,
Damğaçı düzündə bax, uralanıb.

Bu yerdə daşların əyilib başı,
Bu yerdə sözün də qiyməti ləldir.
Bilinmir tarixi, bilinmir yaşı,
Hər daş bu yerdə gözəl-əzəldir.

Bu yerdə bir elin qəhrəmanlığı,
Dünyaya səs salıb, layla çalıbdır.
Düşmən bağrını sökən igidlər,
Bu yerə harayla-hayla gəlibdir.

Sonsuz üfüqləri indi sakitdir,
Mən tənha qalmışam düşüncəm donub.
Bir tənha qovağın başına indi,
Bir cüt göyərçinim uçaraq qonub.

Qəmli sözlərimin şirinliyi yox,
Mən burda doğulub ölmək istərəm.
Məni düz anlayın, ay eloğlular,
Mən burda tarixi bilmək istərəm.

Ovcumda daşlardan qızartı qalıb,
Sürtdüm barmağımı daşlar apardı.
Sinəmə dolubdur dərdim, kədərim,
Sevinci sinəmdən daşlar qopardı.

Dözəmmərəm dərdə, qəmə ay ellər,
Burda tarix yatır, burda sirr yatır.
Sözümüz, gözümüz burda qəmlənir,
Tarixim-dünənim torpaqda batır.

İnamım azalıb aylara, günə,
Solmaz güllərim də daha solubdur.
Düşmən çəpərimin dibində durub,
O mənim günümə baxıb gülübdür.

Tariximi gəzdim, tapammadım mən,
Bu yerdə son şəkil çəkdim yadigar.
Ey alim dostlarım, şair dostlarım,
Burda yazılmamış milyon sözlər var!
Burda yazılmamış milyon əsər var!

**Borçalı, 2014, 3 may-17 may.**

*P.S. Şair-jurnalist Nizami Məmmədzadənin "Çələbilər" poeması Borçalı tarixinin bir qolunu təşkil edir. Poemada Borçalıda yaşayan və 200 ildən-500 ilədək tarixi olan "Çələbilər" qəbiristanlığının tarixinin araşdırılmasının vacibliyi vurğulanır. Müəllif bu məşhur qəbiristanlığın getdikcə məhv olduğunu və Borçalı tarixinin daha bir səhifəsinin də gələcək nəsillərə çatmayacağını bildirib.*

## Zarafat eləyir mənimlə dünya

Hamı şeir yazır, mən də yazıram,
Bəlkə düz deyiləm, yollar azıram,
Əlimdə qələmim mən də hazıram,
Zarafat eləyir mənimlə dünya.

Söz qoşub, saz çalıb qıza, gəlinə,
Ən gözəl misralar qonub dilinə,
Minib Koroğlutək Qırat belinə,
Zarafat eləyir mənimlə dünya.

Sinəmə çal-çarpaz dağları çəkib,
Mənə yol göstərib, dizimi büküb,
Köhləni belədən-beləyə səkib,
Zarafat eləyir mənimlə dünya.

Yadıma axirət, cənnəti salır,
Məni bu dünyadan qoparıb, alır,
Yadımda görün bir o necə qalır,
Zarafat eləyir mənimlə dünya.

Sevgimin sevinci, hay-harayı var,
Hər anı, saatı, min bir ayı var,
Mənim bu dünyada şah sarayım var,
Zarafat eləyir mənimlə dünya.

Ağrı da, acı da duydum sinəmdə,
Qəmli gözlərini sildi nənəm də,
Qurduğum beş günlük çadır-binəmdə,
Zarafat eləyir mənimlə dünya.

Bu dünya yalandır, yaman fanidir,
Min könül bağçası salanı udur,

O zalım, qan içən, quldur, canidir,
Zarafat eləyir mənimlə dünya.

Nizami yarası sağalmaz dərddən,
Göyərməz torpağa səpdiyi hər dən,
Namərd əvəzinə mərd yıxır hərdən,
Zarafat eləyir mənimlə dünya.

*30 Aprel, 2010-cu il, Borçalı.*

## Allahın işinə qarışmaq olmur

Yenə oyun gedir, İblis oyunu,
Donunu dəyişir gədələr birdən.
Fələk qapımızı beləmi döyür,
Düşünüb, daşınıb oluruq sərdən.

Kündəmiz küt düşür, bilmirəm nədən,
Halal-hümmət çörək nədənsə azdır.
Ölçüb-biçmişəm mən, ey dadi-bidad,
Atalar dediyi hər kəlmə düzdür.

Çörəyi ver, çörəkçiyə, a qardaş,
Sualı, sorğunu saxla sabaha!
Allahın işinə qarışmaq olmur,
Meydanı gədələr sulayır daha!

## Dünya

*Arif Əmrahoğluna ithaf edirəm*

Ariflərsiz qalan dünya,
Sənə salam, salam olsun!

Sazlı, sözlü kaman dünya,
Sənə kəlam, kəlam olsun!

Bu dünyanın canı yoxdur,
O ölməzdir, qanı yoxdur,
Gedənlərim hanı yoxdur,
Hər günü bir yalan dünya!

Söz-söhbətim hey çaş düşür,
Hər üzükdən bir qaş düşür,
Hər gün gözdən min yaş düşür,
Layla çalım, balam dünya!

Səndə toplar, silahlar var,
Səndə kədər, dərd-ahlar var,
Səndə bitməz günahlar var,
Kim deyər ki, oyan, dünya!

Ömrü verib, alan sənsən,
Biz kasıbıq, kalan sənsən,
Biz bilirik gedəcəyik,
Tənha, yazıq, qalan dünya!
Tənha, yazıq, qalan dünya!

*22 noyabr, 2014-cü il, Borçalı*

## Torpaq

*Dünyadan nakam köçmüş, 30 yaşında özünü güllələmiş, istedadlı və gənc Borçalı şairi İsa Sadiqin əziz xatirəsinə*

**I**

Neçə canlar gedibdir,
Bu torpağın altına.

Bənzəyir sanki torpaq,
Zər baftalı altuna.

Ömür vəfasız imiş,
Gör kimləri aparır.
Qol-budaqlı ağacı,
Pöhrəni də qoparır.

Otuz yaşlı şairi -
Sadiqi də aparmış.
Dünya boyda arzusu,
Kor quyutək qapanmış.

Hər qoşması, hər sözü,
Sanki işvəli gözəl.
Ah, şair, ağlar gözüm-
Baharım oldu xəzəl.

Sanki tufanlarda mən,
Şığıdım düşmən üstə.
Gözəl gördüm şeirdə,
Bel incə, dodaq püstə.

**II**

Xatın, sənin yolunda
Bir şair nakam gedib.
Qızılgülə baxdınmı,
Qəbr üstə tənha bitib.

Heç bir dəfə təklikdə
Məzarlığa getdinmi?
O gözlər yolda qalıb,
Xatın, ölüb-itdinmi?

Bəxti qara, vəfasız,
Nə deyim sənə gözəl?
Gərək Allah öldürəydi,
Səni Sadiqdən əzəl.

**III**

Ovsundumu, cadumu,
Mələkmidir bu torpaq?
Son məqamım, son arzum,
Diləkmidir bu torpaq.

Bəlkə onda nəsə var,
Torpağa köçən bilir.
Buğda şirin, dadlıdır -
Zəmini biçən bilir.

Ey torpağım! Qəbul et,
Köçürəm mən də sənə!
Sadiqi də apardın,
Üz qoyacam sinənə.

Vəfasız olmamışam,
Torpaq - mənim anamdır!
O - mənə arxa, dayaq,
O - andımdır, inamdır!

Sədaqətin yolunu,
Səndə gördü Sadiqim.
Mən də sənə köçürəm,
Torpaq, sənə sadiqəm!

Gəlirəm, aç qoynunu,
Sanki nazlı gözəlsən.

Qurtaraq bu oyunu,
Sən ulusan, əzəlsən!...

**IV**

Taqətim yoxdur mənim,
Dünya yaman vəfasız.
Görürsənmi cavana
O ad qoyur – vəfasız...

Eh, ay Xatın, dövlətə
Susayıb atdın yarı.
Hanı dövlət, hanı var,
Ömrün qırıldı yarı...

Torpaqda tapacağıq,
Dövləti də, varı da.
Xəzinələr yatır bil,
Torpağın qatlarında.

Xəzinə nə?
- Nizamim,
Vurğunum,
Müşfiqim,
İsam mənim!
Sən də yaqut olarsan,
Torpağa qoysam səni!

Bu torpaq – Vətən bizə!
Bu torpaq – kətan bizə!
Dərd çəkməyə Allahım,
Vermədi kotan bizə!
Vermədi kotan bizə!...

*2000-ci il, Borçalı.*

## Bu dünya bir nağılıymış...

Elə bil bu dünya bir nağılıymış,
Burda öz bəxtini seçərmiş hərə.
Ömür dediklərin nağıl yoluymuş,
Üç alma düşərmiş göylərdən yerə!

Şirinmiş, noğulmuş alma bu qədər,
Alma taleyimi həll eyləyərmiş!
Allahım, sən mənə bir alma göndər,
Əjdaha qanadın üstümə sərmiş!

Kədərin, xəyalın sonu varıymış,
Düzlük – adamlara ölçüymüş demə.
Sevincin, məlalın sonu varıymış,
Məhəl qoyan yoxmuş kədərə, qəmə.

Eh, babam, diriykən gömülmüşük biz,
Savankən saçımız ağarıb tamam.
Bu günlər sevinc yox, artıb qəmimiz,
Bizlərdə sabaha qalmayıb inam.

Çörəyin dadı da, tamı da yoxdur,
Bu doğma zəmanə yaman yadlaşıb.
Eh, babam, indisə almalar çoxdur,
Di gəl ki, ağaclar dibdən cırlaşıb!

## Dünya səndə nələr varmış!...

Biri deyir qocalıram,
Biri deyir ucalıram,
Biri deyir bac alıram –
Dünya səndə nələr varmış!

Biri deyir yaman dünya,
Biri deyir aman dünya,
Biri deyir palan dünya –
Dünya səndə nələr varmış!

Biri deyir quyu qazan,
Biri deyir yolun azan,
Biri deyir yazan-pozan –
Dünya səndə nələr varmış!

## Bu torpaq

İnsanam , dünyanın gövhər kanıyam,
Dünya mənim dediyimi söyləyir.
İstərəm ki, Günəş kimi hey yanam,
Amma məni dünya yaman teyləyir.

Hər baxışım Günəş teli-nurlu zər,
Oymaq-oymaq Borçalımı dolaşır.
Hər qoca-nurani, cavan-hünərvər,
Dağ arana, aran dağa yaraşır.

Burda Koroğlu da Qırat oynadıb,
Burda gözəllər var-Nigar qeyrətli.
Hər çiçək suyundan məlhəm qaynadıb,
Ağbirçək nənələr loğman qüdrətli.

Hər ötən dəqiqə, saat mənalı,
Hər yoldan ötənə diqqət başqadır.
Başı nələr çəkib-dava-şavalı,
Yenə şöhrəti var-adı başdadır.

Bu torpaq ömrümün bir şah əsəri,
Mən onun nazını hər vaxt çəkəcəm.
Vətənə üz tutub mən də deyirəm-
Bu torpaq uğrunda bir vaxt öləcəm.
*Borçali, Yuxarı Saral kəndi, 1998-ci il.*

## Neyləyim

Uzaqdan görünən, ay bizim ellər,
Könlüm şana-şana oldu, neyləyim.
Əsdi başım üstə bir xəzan yeli,
Bağçamda güllərim soldu, neyləyim.

Bu dünya tək mənə namərd olmadı,
Üzümə bir dəfə baxıb gülmədi,
Gözümün yaşını o heç silmədi,
Tənhalıq qəlbimə doldu, neyləyim.

Bu həsrət telləri ney tək çalındı,
Dost qafil sözümdən yaman alındı,
Bu torpaq satıldı, torpaq alındı,
O tənha qəbirlər qaldı, neyləyim.

Bir meyvə dərmədim saldığım bağdan.
Canımı qurtardım vəhşi yağıdan,
Dərd məni aşırdı təpədən, dağdan-
Yollar ayrıcına saldı, neyləyim.

Ey Nizami, qəlbin daşa dönübdür,
Bu çərxi fələyin çarxı çönübdür,
Bəxtinin ulduzu çoxdan sönübdür,
Danışma, desinlər laldı, neyləyim.

Nadanlar, rəzillər çıxdı qarşıma,
İndi gəl, Nizami, söylə-barışma,
İnandım namərdə çıxdı başıma,
Baxtımı daşlara çaldı, neyləyim.

*Borçalı,Yuxarı Saral kəndi.*

## Qayıdın

*Köçkünlərə, didərginlərə...*

Qayıdın vətəndən, eldən köçənlər,
Qayıdın bulaqdan saf su içənlər,
Qayıdın çəməni, çölü biçənlər,
Qayıdın o dağlar sizi gözləyir.

Könlümə bir həsrət teli düşübdür,
O sazın bəmi-bəm, zili düşübdür,
Türk ellərimizin dili düşübdür,
Qayıdın dodaqlar sizi səsləyir.

Meri-meyvəsi də şəkərdir, baldır,
Badəni həmişə sağlığa qaldır,
Bir ovuc moruğum şirin, bal dadır -
O gözəl oylaqlar sizi gözləyir.

Quzuyu indicə kəsmişəm, gəlin,
Bəndi-bərəni də kəsmişəm, gəlin,
Daha düşmənlərdən bezmişəm, gəlin,
Qayıdın, qonaqlar sizi gözləyir.

Həsrətəm sizdəki məzəyə-meyə,
Keçdi ömrüm-günüm il saya-saya,
Palıd da, cökə də ucalıb göyə-
Meşədə qovaqlar sizi gözləyir.

Didərgin etməyin oğulu, qızı,
Azalıb göllərdə ördəyi, qazı,
Yenə cövlan edir Əmrahın sazı-
Qayıdın, barmaqlar sizi gözləyir.

Həyat nəğməmi də yazıram, bilin.
Kədərli durmayın - göz yaşı silin,
Nura boyanıbdır yolları elin,
Evlərdə çıraqlar sizi gözləyir.

Sinəmdə söhbəti, sözü bir-bir seç,
Meydan sulanmayır, məclis gülmür heç,
Oğullar, igidlər silkələnmir heç,
Paslanan yaraqlar sizi gözləyir.

Dünyada namərdə meydan olmayıb,
Mərd əkən çiçəklər heç vaxt solmayıb,
Hələki torpağa şeytan dolmayıb,
Qayıdın, torpaqlar sizi gözləyir.

Eheyy... atlı qardaş! Vuruş gözlə sən!
Vuruş qollarınla, vuruş gözlə sən,
Düşməni məhv edib bir az gözləsən.
Qələbə bayraqlar sizi gözləyir.

## Unutmam...

Bir tərənnüm eylə Saralı, aşıq,
Könül bəd nəzərdən saralı, aşıq.
Yazıram şerimi onun hüsnünə,
Unutmam heç zaman Saralı, aşıq!

Ürək dağ havası almaq istəyir,
Könül rübabını çalmaq istəyir,

Ölüb bu yürlərdə qalmaq istəyi-
Başımın bəlası, məlalı, aşıq!

Olmuşam sevgiyə əsir bu yerdə,
Sevgili cananım gəzir bu yerdə,
Başımda küləklər əsir bu yerdə-
Gözlərim yumulub qaralı, aşıq!

Yaxşılıq hər zaman dərd çəkəndədir,
Çörəyin bolluğu yer əkəndədir,
Mənim dünya evim bu məkandadır-
Heç zaman soruşma haralı, aşıq!

Dolaşdım dağları yağışda, qarda,
Belə bir torpağı taparam harda?
Qayıdacam yenə bu gözəl yurda-
Gəzmişəm bir müddət aralı, aşıq!

*Borçalı, Yuxarı Saral kəndi*

## Telli saz

İcazə ver, sığallayım, öpüm səni telli saz,
Bircə gün də qəlbim səndən bilki ayrı durammaz.
Sinəm üstə yerin hazır, rahat uzan, sevgilim,
Mizrab telə toxunanda qoy danışım, qoy gülüm.

Ömrüm boyu səsin mənə ayə kimi gözəldir,
Hər telinə əl dəyəndə zilə qalxan qəzəldir,
Könlüm evi rahat olur, qonaq olsan qəlbimə,
Səsin bal tək dərman olur, vuranda mən hər simə.

Dədəm Qorqud qopuzunu çalardı hey, çalardı,
Çalğısıyla dərin-dərin dəryalara dalardı.

Hər simindən çıxan avaz dünya boyda kəhkəşan-
Qoppuz mənim tariximə ilk yazılan şöhrət-şan!

Elə çaldım, yorulmadı barmaqlarım, dilim də,
Ayırammaz səni məndən hətta qəflət ölüm də,
Tarix boyu yaddaşlarda qaldı səsin, sorağın,
Ona görə gözəl sazım, şöhrətin var elimdə!

Xan Əmrahım gümüş teli sığalladı, saydı hey,
Qoç Koroğlum dəlilərə dedi: hoydu-hoydu hey!
Mənim üçün əlimdə o həm silahdır, sipərdir,
Bu saz adlı bir çanağın vuruş yeri toydu hey,
toydu hey...

*Borçalı, Yuxarı Saral kəndi*

## Hər millət oyanır, biz oyanmırıq

Nələr gəldi başımıza dözdük biz,
Nədəndir bu yanan odda yanmırıq.
Neçə məclislərdən gəlir səsimiz-
Hər millət oyanır, biz oyanmırıq.

Qurunun, yaşın da öz istisi var,
Hər evin, bacanın öz tüstüsü var,
Bilirik millətdə umu-küsü var-
Hər millət oyanır, biz oyanmırıq.

Düşmənlər qapımın ağzını kəsir,
Başımda nə qədər küləklər əsir,
Baxın namərdlərə-yaman tələsir,
Hər millət oyanır, biz oyanmırıq.
Yanvarda güllələr qərənfil oldu,
Xocalı dərdimdən güllərim soldu,

Talenin gərdişi gəlha-gəl oldu-
Hər millət oyanır, biz oyanmırıq.

Torpağım yad əldə tapdanır hər gün,
Solub yanaqları gülün, çiçəyin,
Əsirdir qızların gözəl-göyçəyi-
Hər millət oyanır, biz oyanmırıq.

Biz Odlar oğluyuq, Odlar övladı,
Bax, buna görə də odda yanmırıq,
Fəqət, dağlarımız qalıb o üzdə,
Hər millət oyanır, biz oyanmırıq.

Dədə-baba qəbri qalıb o üzdə,
Bir qəm-kədər gəzir sinədə, üzdə,
Bir deyin, söyləyin mənə bir siz də,
Nə üçün al-qana biz boyanmırıq,
Hər millət oyanır, biz oyanmırıq.

## Verin mənim haqqımı

Haqqımı verin özümə,
Haqqımı götürüb gedəcəm
haqqımı axtarmağa.
Görüm, mən kiməm, nəçiyəm,
Haqqım varmı yaşamağa!

Haqq sözü - Allah sözüdür,
Ey mənim Allahım,
sənin dərgahına sığındım mən də,
haqqıma nə düşüb
onu bil sən də.
Mən pul istəmirəm,
para demirəm -

Mən haqqımı istəyirəm -
haqqımı.
Məni incitmək - bu haqmı,
pasporta möhür vurmaq -
bu haqmı?
Mən bu torpağın oğluyam,
tələb edirəm haqqımı!
- Verin mənim haqqımı!

Ağaclarda bitirsə,
Dərin mənim haqqımı.
Heç nə istəmirəm, təkcə
Verin mənim haqqımı.

Deməli, haqq ağırdır,
Heç kim daşıyammır onu.
Haqqın necə olduğunu
Haqqı daşıyan bilər.
Qorxuram ki, verməsələr,
Haqqım nazilər, üzülər.

Verin mənim haqqımı!
Qoymaram üzülməyə!
Qoymaram onu mən
Dərdim kimi sinəm üstə
düzülməyə...

Başlayacaq dərdim mənim,
yavaş-yavaş çözülməyə.
Verməsəniz haqqımı
Səbrim tükənər daha.
Şikayət edərəm mən,
O görünməz Allaha!

*Borçalı, Yuxarı Saral kəndi, 2009-cu il.*

## Həsrət

*Bir müddət Bakıda yaşadım. Lakin nədənsə məni doğma yerlər, Borçalı özünə çəkdi. Düşündüm ki, bir dəfə yaşayıram; gedim o dağların, gözəlliklər məskəni olan tamam başqa bir dünyanın suyundan içim, havasını udum, ürəyimcə yaşayım. Elə də etdim. İnanın ki, heç peşman olmamışam!*

Hələ bu şəhərlə tanış deyiləm,
Çətinmiş şəhərdə yaşamaq, atam.
Gərək dostlar tapam, tanışlar tapam,
Çətinmiş şəhərdə yaşamaq, atam.

Obadan ayrıldım, eldən ayrıldım,
O qara qaşlardan, teldən ayrıldım,
Çəməndən ayrıldım, güldən ayrıldım –
Çətinmiş şəhərdə yaşamaq, atam.

Könlümə Borçalı düzləri düşdü,
Elimin mehriban qızları düşdü,
Anamın duası, sözləri düşdü,
Çətinmiş şəhərdə yaşamaq, atam.

İydə ağaclığı görüş yerimiz,
Olmazdı qəmimiz, dərdi-sərimiz,
Bizə yol göstərən Mələk qarısız –
Çətinmiş şəhərdə yaşamaq, atam.
Yaşaya-yaşaya qərib oldum mən,
Bəzən xəyallara dalıb dolaraq,
O tanış dağlara həsrət qaldım mən,
Çətin bu həsrətdən yaxa qurtaram,
Çətinmiş şəhərdə yaşamaq, atam!

Sinəmdə söhbətim, sözüm dop-dolu,
(Bəzən fikirlərim mənə dərd olur),
Kənddən ayrılalı uğurlu yolu,
Anamla atamın əli göstərib,
Bacım çiçək dərib yoluma mənim,
Sevgilim ayrılıq yolunda durub,
Dolanıb sağıma, soluma mənim.

Hamının istəyi ürəkdən olub,
Məni təbrik edib dostlar, tanışlar.
Şəhərli olmusan bəxtəvər deyə,
Min tərif söyləyib incə baxışlar.

Mənimsə ürəyim yaman incəlib,
Dolubdur beynimə fikir, düşüncə,
Yadıma o yerlər – dağlar düşüncə,
Çağırır məni də ana təbiət,
O doğma el-oba, qəribsəyən kənd.
Gözü yollardadır, əli qoynunda,
Sındırıb gecənin donqar belini –
Oğullar axtarır şəhər yolunda.

Mənim doğma kəndim, mənim el-obam,
Dözə bilməyirəm daha mən sənsiz,
O nazlı pərisiz, o şux gözəlsiz,
Çətin bu şəhərdə yaşayam, atam,
Çətin ki, muraza çatam, ay ata.
İndi xilaf çıxıb köhnə əhdimə,
Qəlbimdə arzular, birdə ki, inam.
Qayıtmaq istərəm ulu kəndimə.

Nəyimə lazımdır, daha nəyimə,
Nəyimə lazımdır tozlu küçələr.

O tanış dolaylar, o dar cığırlar,
O yaşıl çəmənlər, laləli düzlər,
Qoynuna çağırır, qoynuna məni.

Gözü yolda qalan, əli qoynunda,
Bir el gözəli də mənə gəl deyir.
Daha dözəmmirəm bu şəhərdə mən!
Məni də bir oba, bir el gözləyir!

*1983-cü il, Bakı.*

## Oyan, ey Türk!

Türk deyiləndə nə yada düşür? Əlbəttə, ilk növbədə Vətən! Türkün bir dostu var - o da Türkdür! Türk-mənəm, sənsən, odur! Türk arxadan vurulmaz! Türk dünyası bizim dünyamız! Türk sözü igid, qoçaq, vətənpərvər deməkdir. Türkün yol-yoldaşı atdır, bir də əlində həmişə tutduğu sıyrılmış qılınc. Bizim dağların o üzündə Türkiyədir. Bizim baba və nənələrimiz yaşayır orda. Bir qardaşın biri Borçalıda, biri Türkiyədədir. Bizi dağlar ayırır, dağlar da birləşdirir. Laylamız eyni dildə çalınır. Türkülərimiz eynidir, oxşardır. Bizim fərqimiz yoxdur. Düşmənə qarşı birgə vuruşuruq! Türklər gəzən dağlarda bizim də izimiz var. Bizim çaldığımız sazda onların da sözü var. Ürəyimiz bir, sözümüz bir, dilimiz birdir. Biz iki VƏTƏN, bir MİLLƏTİK!

Oyan,ey Türk, düşmən gəlir qarşından,
Cavabını yumruğunla verginən!
Mən bilmirəm, nədir səni sarsıdan,
Cəsarətlə onu yerə sərginən.

Bu dağlarda, bu daşlarda izim var,
Qayaların hər biri də əsgərdir.

Şirin dilim, şirin-şirin sözüm var,
Oyan, ey Türk,qarşı dağlar səngərdir.

Mələk nənəm səndən mənə çox deyib,
O dağların o üzündə Türküm var!
Laylamı da gecə-gündüz o çalıb,
Bax,qardaşım necə gözəl türküm var!

Bu dağların o üzündə Türküm var!
Nənəm mənə belə deyib, ay ellər.
Ağı deyən, layla çalan türküm var,
Zaman-zaman onu deyib ah,dillər!
Sinəm üstə çalın-çarpaz dağlar var,
Qoca Ləlvər sənə sarı boylanır.
Oyan, ey Türk, bir qardaşım ordadır,
Bu həsrətlə qoca qarı boylanır.
Dərdli sinəm neçə dərdi sinirib,
Neçə qardaş-bacı səni can sanıb.
Oyan, ey Türk! Gözünü aç, qarşında-
Öz qardaşın-Azərbaycan dayanıb!

## Dünya

Dünya mənlə bu meydanda
Küştü tutub, cəng eyləyir.
Mənə hərbə-zorba gəlib,
Baş-beynimi dəng eyləyir.

İnsafını Allah alıb,
Kasıblara gün ağlamır.
Dünya belə bir dünyadır,
Heç kimsəni soraqlamır.

Dünya gəldi-gedər olub,
O heç kimi bağışlamır.
Hər kəlməsi neştər olub,
Dodağından zəhər damır.

Hər qapıda, hər ocaqda,
Neçə-neçə şəhid qanı.
Dünya belə bir dünyadır,
Onda insaf, mürvət hanı?

Namərdlərə meydan verən,
Mərd adamdan qaçan dünya.
Qartal kimi öz ovunu,
Tez götürüb uçan dünya!
Dünya, dünya, zalım dünya!
Biz gedərik qalan dünya!
Dediklərin heç düz çıxmır,
Ömrü boyu yalan dünya!

## Dağlar

Ay sinəsi dağlı dağlar,
Ay qaralı, ağlı dağlar,
Yolların var – bağlı dağlar,
Yerindəmi gülüm, dağlar!

Baş endirim ətəyinə,
Ağ çalmalı örpəyinə,
Bənövşəli çiçəyinə,
Çatmır aman, əlim dağlar!

Sinən üstə dərdim kaman,
Dar yolların çiskin, duman,

Səndən dərdə çarə uman –
Mənim obam, elim dağlar!

Mənə gəlsin sənin qadan,
Dağ döşündən hava udam,
Mən ayrılıq dedim müdam,
Yandı ağzım, dilim, dağlar!

Düşmən bağrı dələn sənsən,
Gah ağlayıb, gülən sənsən,
Dərd-azarı bilən sənsən -
Sirri-sübhan, alim dağlar.

Sinən mənə min möcüzə,
Çataram mən əlli-yüzə,
Gül-çiçəyi üzə-üzə,
Qoynunda mən ölüm dağlar.

## Tələbələrimə

Hərdən tələbələrə
üç yazıram,
Bəzən onlardan mən
razı qalmıram.
Bulud kimi doluram,
boşalmıram.

İki yazmaq olmur
tələbəyə hərdən,
Baş aça bilmirəm
mən bu sirdən.

Üç yazan müəllimdən
Dörd umur tələbə,
Amma cavab vermir
haqlı tələbə.

Onlara üç yazıram bəzən –
Tramvay altında
qalmış üç.
Amma tramvay silinibdir
Yer üzündən.
Kimdədir bu günah,
bu suç!
Bilmirəm mən!

Soruşdum tələbələrdən
Onlar tramvay
görməyiblər heç.
Ona görə razı qalırlar
Müəllim yazanda üç!

*25.05.2003*

## Məni

O xumar üzlünü gördüm, yanıldım,
Qəlbimi bürüdü kədər, ah mənim.
Naz edib sözünü sərrast söylədi,
Boynuma yazıldı min günah mənim.

Eşqimi kəməndtək atdım, yoxladım,
Ətirli telini gül tək qoxladım.
Ay Allah, özümü zorla saxladım,
Çəkdi hər zillətdən o siyah məni.

Ya Rəbbim, bu sevgi mənə yazılıb,
Yoluma çiçəklər, güllər düzülüb.
Ömrüm bu həsrətdən yaman üzülüb,
Qaldırmır torpaqdan nə illah məni.

*5.04.2003*

## Emilyanın ad günü

(Nəvəmə)

Daha böyük bir qızdır,
İşi-gücü oxumaq!
Nənəsi ilə birgə
Xalı-xalça toxumaq!

Söz-söhbəti çoxalıb,
Şirin-şirin söz deyir.
Qaş-qabağı açılıb,
Sanki çoxlu bal yeyir.

Nənə ona get deyir,
Qardaş ona gəl deyir.
Biri ona çox deyir,
Biri ona az deyir.

Bu gün onun ad günü,
Babasına söz deyir:
-Baba, mənəm, Emilya!
Hamı mənə gəl deyir.
Öz adımdır Emilya,
Hamı hey "Gözəl" deyir!

## Sairmedə yazılan şeirlər...

Gözəlliyi duyan bir yazaram mən,
Meşədə, çığırda heç azaram mən?
Deyirəm tərifi dərəyə, düzə,
Dostlar qoy çatsın bu gözəllik sizə!

Şehli çəmənlərin çiçəyi burda,
Taparsan belə yer bir də ki, harda?
Gözəllik verir şahanə yurda –
Şairə mövzu ver, həvəs ver saza!

Ömrümün bir anı bax, belə keçdi,
Təbiət qoynunu ah, mənə açdı,
Dağlara dırmandım, düzlərə qaçdım,
Su içdim, baxmadım nə çoxa, nə aza!

Çiçəyini üzdüm çəmənin, düzün,
Nələr görür burda mübarək gözün!
Tükənmir ilhamın, tükənmir sözün,
Yaraşır bu yerdə yaşamaq bizə!

## Sairmedə

Dərələr yol verdi, dağ sinə açdı,
Qartal sevincindən qıy vurub uçdu,
Çəmən çiçəyilə bol ətir saçdı,
Sairmedə!
Duman məni dərə boyu izlədi,
Yollar məni döngələrdə gizlədi,
Hara getdim, ürək səni özlədi,
Sairmedə!

Hər çiçəyin öz ətiri, öz adı,
Zirvələr də məni yaman qınadı,
Pətək balın bir aləmdi – min dadı!
Sairmedə!

Təbiətin nağıl rəsmi burda var,
Meşə sakit, bulaqları çağlayar,
Hər gələnə bir gözəllik bağışlar,
Sairmedə!

Yollar məni bir an belə yormadı!
Heç kimsə də haralısan-sormadı,
Ürək hər an döyündü, heç durmadı –
Sairmedə!

Bu dağlara, dərələrə söz dedim,
Çox düşündüm, əfsuslar ki, az dedim!
Ay ürəyim, heç düşünmə yaz dedim!
Sairmedə!

İncimədi nə daş məndən, nə qaya!
Sığal çəkdim, çoşub daşan hər çaya,
Allahımdan çox razıyam bu paya –
Sairmedə!

Sinəm yaman hava aldı, boşaldı,
Sevinirəm məndən orda iz qaldı,
Deyə bilmədiyim neçə soz qaldı,
Sairmedə!

*22 sentyabr, 2013-cü il, Sairme-Borçalı.*

## Sairmedə

Qayaların sərt baxışı üzdü bizi,
Yağışlardan tuta-tuta göyə çıxdıq.
İldırımlar eşidərək səsimizi,
Bir palıdın sinəsinə alov çaxdı,
Sairmedə!

Günəş çıxdı, şehli çəmən qucaq açdı,
Oğul-uşaq hər tərəfə cumub qaçdı,
Dərə boyu duman-çən də qucaqlaşdı,
Sairmedə!

Könlüm evi bu sevincdən ilham aldı,
Sairmedən mənə neçə şeir qaldı,
Gördüm dilim, əlim, sözüm şirin baldı,
Sairmedə!

Çəmənlərdə çiçəklərin balı gözəl,
Bu dağlarda yamacların yalı gözəl,
Nizaminin bu ormanda halı gözəl,
Sairmedə!

*2014-cü il, Sairme.*

## Qoru əmanətimi!

*Əziz bacım Gülçöhrəyə ithaf edirəm….*

Qəflətən açılan bir güllə təki,
Mənə xəbər gəldi, ömrüm qırıldı!
Bacımın kədərli üzünü gördüm,
Ürəyim diksindi, iki yarıldı!

Ayrılığın sonu bax, belə çatdı,
Çatmadım mən onun son nəfəsinə!
Dərdləşə bilmədik, ömür-gün keçdi,
Oynaya bilmədim toy həvəsinə!

Dünyanın məhvəri nə tez fırlandı,
Yad yerdə, torpaqda nə dedin, bacı!
Bəlkə ata-ana kəlməsi dedin,
Kaş görməyəydin dərd, əlacsız acı!

Uzaqda gözümün yaşını tökdüm,
Ürəyim səssizcə qannar ağladı!
Nə gördün qərib bir məkanda, bacı?
Ah, sənin naləni dinlər, ağladım!

Torpağa yalvardım, daşa yalvardım,
Ah, ömür itirdim, neyləyim aman!
Sən idin dövlətim, gümanım, varım!
Bu sevgi yaşatdı illərlə, inan!

Atamın ruhuna dua oxudum,
Anama yalvardım, nazını çəksin!
Dərdli sözlərimdən xalça toxudum,
Qoy orda toy olsun, köhlənlər səksin!

Mənim bacım vardı – yadigar bacım,
Onun gül çöhrəsin mələk sanırdım.
Adı Gülçöhrəydi, üzü - gül çöhrə!
Odur mənim qəmim, odur son dərdim!

Ömür uzandıqca, dərdlər çoxalır,
Bir bacı itirdim, qəm-kədər uddum!
Həyat öz üzünü göstərir mənə,
Ölümə gedirik biz addım-addım!

Bu dünya ömrümü bax, belə alır,
Bir ölüm taleyi yaşayan bacım!
Nə gördün? Görmədin yaxşı günləri!
Dərdləri çiynində daşıyan bacım!

Vətənə gəlibsən, vətən sağ olsun,
Torpağım, daşım da laylalar deyir.
Yat üzün Günəşə sarı boylansın!
Qibləm baxışıyla dualar deyir!

Ey, torpaq, vəfalı bacımı saxla,
Ondan əsirgəmə məhəbbətini!
İndən belə səni çox sevəcəyəm,
Qoru ana torpaq, əmanətimi!

*03. 08.2013-cü il, Borçalı.*

## Bakı axşamları

Bakı axşamları ulduzlu, aylı,
Baxıram köksümə sığmır ürək də.
Burda ləpələnir dalğalı dəniz,
Hey coşub kükrəyir dəli külək də.

Burda səma aydın, günəş nurlu zər,
Üfüqdən-üfüqə gözəldir Bakı.
Küçələr incə bir misraya bənzər,
Ürəyi titrədən qəzəldir Bakı.

Tarixlər şahidi Qız qalasının,
Yanıqlı baxışı dənizi öpər.
Mavi dalğalar da coşub sevgidən,
Çırpınıb sahilə damlalar səpər.

Xəzər-sevgilimin nişan üzüyü,
Qaşında parlayan almazdır Bakım.
Hüsnünə nə qədər tərif deyilsə,
İnan ki, yenə də çox azdır, Bakım!

## Ana torpaq

Hələlik yalana, fitnə-fəsada,
Şərə, hiylələrə döz, ana torpaq!
Üstündə nə qədər haqsızlıq olar,
... Yenə günahkarıq biz, ana torpaq!

Yalandı, iblisdi, pirdi adamlar,
Dəryadı, ümmandı, sirdi adamlar,
Torpağa gedəndə birdi adamlar,
Qazancın kəfənlə bez, ana torpaq!

Biri o birindən hey danos yazır,
Biri o birinə hey qəbir qazır,
Əlində beli də durubdur hazır,
Namərdi, satqını süz, ana torpaq!

Eşqimin, sevgimin sonu görünmür,
Dağlarım dumana, çənə bürünmür,
Adamlar içində ilan sürünür,
İlanın başını əz, ana torpaq!

Namusu, qeyrəti itə atıblar,
Bazarda papağı yada satıblar,
Şəkərə, noğula zəhər qatıblar,
Loğmanı harayla tez, ana torpaq!

Özünü yarğandan atan çoxalıb,
Piştoyu yoxdur heç, atan çoxalıb,
Mənimsə ürəyim yaman yuxalıb,
İstərəm çalına saz, ana torpaq!

Dinlə şeirimi qoşmuşam sənə,
Mən yad olmamışam Ana Vətənə,
Qoşmağa, yazmağa gözəl hüsnünə,
Tapmıram layiqli söz, ana torpaq!

İblislər, şeytanlar çoxalıb daha,
Ölüm fərq qoymayır nökərə, şaha!
Nadanlar şikayət edir Allaha,
Torpaqdan doymayır göz, ana torpaq!

Nizami, nəzər sal iti gözlə sən,
Qələmin itidir, vuruş sözlə sən!
Arayıb axtarma, bir az gözləsən,
Bəzəyər səni də düz ana torpaq!

## Allahım sən mənə bir sevgi göndər

Kainat dolanır Ayla, ulduzla,
İnsanlar köçünü sürür günbəgün.
Yüz düşün, yüz daşın, yüz də hey sızla,
Bu həyat çəkəcək sınağa səni.

Üfüqlər sakitdir, təbiət rahat,
İllər meymun olur, gah da köhlən at.
Yaşa-yaxşılıq et, qurub hey yarat,
Bu dünya yazacaq varağa məni.

Ömür möcüzədir, o gəldi-gedər,
Bizi təqib edir həmişə kədər,
Allahım sən mənə bir sevgi göndər,
Bu sevgi aparsın torpağa məni.

*Borçalı*

## İnciməz...

Üzsəm çiçəyini çölün, çəmənin,
Çiçəklər inciməz, çəmən inciməz!
Öpüb torpağını ana vətənin,
Gözüm üstə qoysam, vətən inciməz!

Dağların gözəllik tacını alıb,
Vətənə şah desəm, dağlar inciməz.
Sinəsi yamyaşıl, göz uzandıqca –
Uzanan meyvəli bağlar inciməz!

Çayın şaqraq səsi, meşənin hüsnü,
Məni yaşamağa çağırır müdam.
Bilmirəm bu sevgi, ya da hissdimi,
Bihuş olur gözəllikdən hər adam...

Nizami sözündə var min həqiqət,
Dünya saldığımız izdən inciməz.
Baş qoysam torpağın yaşıl qoynuna –
Sevdiyimiz torpaq bizdən inciməz!

*2013-cü il, Borçalı.*

## Uzaqdan Ləlvərə baxıb yazdığım şeir...

Ləlvər üçün kim darıxıb?
Çiçəkləri üzən gəlsin.
Yam-yaşıllı çəmənlərdə -
Yallı vurub süzən gəlsin!

Ah, darıxdım ellər üçün,
Şirin-şirin dillər üçün,
Gözəllərin saçlarına,
Gül qoparıb düzən gəlsin.

Çiçəklərim qəribsəyib,
Göyçəklərim qəddin əyib,
Ömrü incə-incə qıyıb,
Şeir-nəğmə yazan gəlsin.

Yamaclarda Qaymaqçiçək,
Bulağından qurtum içək,
Bu dağlarda otu biçək,
Şehli otu əzən gəlsin.

Doyammadım bu çağından,
Əl çəkmərəm qucağından,
İlham aldım qaçağından,
Dağlar, səndən bezən gəlsin.

Çiçəyinə vurulmuşam,
Sularında durulmuşam,
Şəkillərə sarılmışam,
Ayrılığa dözən gəlsin!

*Borçalı, 2014, 11 iyun.*

## Dağlara yazdığım şeir...

Dağlar mənə, mən dağlara sığmadım,
Yön çevirdi qaya mənə, daş mənə!
Harayladım düzlər boyu Tanrımı:
“Gözəl dağlar, sinənizi aç mənə!”

Tale mənə sığal çəkdi, söz dedi -
Hər bəndəyə qulaq asma, döz dedi!
Onda bilki yaşayarsan yüz, dedi -
Qaçma məndən, hər sirrini aç mənə!

## Yollar

Uzaq – yaxın, a yollar,
Məni yara qovuşdur.
Səbr-qərarım kəsilib,
O dildara qovuşdur.

Bəxtim yoxdur, uzaqdan –
Telim ona çatmayır.
Göndərdiyim namələr,
Gülüm ona çatmayır.

Darıxmışam o yarsız,
Ahu-zar qəm gətirir.
Mənə sevgi lazımdır,
O mənə dəm gətirir.

Gəl, ey gülüm görüşə,
Dərd məni hara çəkir.
Həsrətəm bil öpüşə -
O məni yara çəkir.

Sinəm üstə ürəyim,
Yalqızlığa dözəmmir.
Balıq kimi dəryada
Genişliyə üzəmmir.

Uzaq-yaxın, a yollar,
Məni yara yetirin.
Yar gəlmirsə məni də
Siz biryolluq itirin.

*Marneuli. 1.04. 2000*

## Vaxt varikən

Vaxt varikən dünyanın,
Dərd-qəmini çəkim mən.
Torpağımı şumalayıb,
Çörəyimi əkim mən.

Bənövşəli yamaclar,
Məni özünə çəkir.
Laləli düzəngahda
Səkilli səmənd səkir.

Təbiətdə möcüzə
Hər an məni mat qoyur.
Şır-şır axan bulaqlar,
Qayaları hey yonur.

Sanıram ki, üfüqlər
Gözəllərin üzüdür.
Şaqqıldayan şimşəklər
Göyün yerə sözüdür.

*Marneuli. 2.04.2000*

## Yadındamı...

Məndən yan keçirsən, bəlkə sevmirsən,
Yadındamı sinəm üstə yatdığın.
Səhər mehi həzin-həzin əsəndə,
Şirin yuxulara şəkər qatdığın.

Yadındamı, dərə boyu qaçardıq,
İkimiz də min cür oyun açardıq,
Sanki bir quş olub uçar, uçardıq,
Yadındamı, səhər şehə batdığın.

Ağaclardan şirin meyvə dərərdik,
Meyvələri süfrə üstə sərərdik,
Yorulanda qoşma, təcnis deyərdik,
Yadındamı, çaya qarmaq atdığın.

"Ayı yuvası"ydı görüş yerimiz,
Tez gələrdik ikimizdən birimiz,
Bir olardı söhbətimiz, sirrimiz,
Yadındamı, ilk dəfə naz satdığın.

Yadındamı, o baxışlar, o tellər,
Yadındamı, topladığım o güllər,
Deyirdin ki, yatağıma çiçək sər,
Yadındamı, söyüd altda otduğun.

Yadındamı, dayanmışdın sən yalqız,
Yadındamı, şahid idi o ulduz,
Yadındamı, sinəm üstə telli saz,
Yadındamı, hey yandırıb yaxdığım.

Yadındamı, yadında... eh, nə deyim?!

*Marneuli-Yuxarı Saral. 12.05. 2000*

## Uçma, ey göyərçin, bizim yerlərə...

Uçma, ey göyərçin, bizim yerlərə...
O tənha qəbirlər ayıla bilər.
Kimsəsiz görərkən yurdu-yuvanı,
Yenidən, yenidən bayıla bilər.

Uçma, ey göyərçin, tanış düzlərə,
O qoşa cüyürün izi gözəldir.
Aşıq Ələsgərin qəbri çatlayıb,
O yadigar qalan sözü gözəldir.

Barıtdan, tüstüdən bihuş olarsan,
O yanan ocaqlar bizim ocaqdır.
Taxtanı, şalbanı üst-üstə qoyub,
Erməni bu saat od vuracaqdır.

Bu zalım dərdlərə dözən kimdir-kim?
Baxışlar odludur, sinə dağlıdır.
O qoca qarını görürsənmi sən?
Dediyi hər kəlmə-sözü ağıdır!

Sakit baxmaq olmur tanış üzlərə,
Səlminaz xalamın dərd-səri çoxdur.
Evi-eşiyi də töküb düzlərə -
O dərdi yığıbdır, əlacı yoxdur.

Uçma, ey göyərçin, dik zirvələrə,
Zirvə bizim idi, dağ bizim idi.
İndi tökülmüşük yad küçələrə,
O meyvə gətirən bağ bizim idi!

Hərdən qəmli-qəmli Ədalət çalır,
Saz səsi qanımı dondurur birdən.

Xəyallar, xəyallar hey mənə qalır,
Ayrıla bilmirəm doğma yerlərdən.

O tənha qəbirlər – ata-babamız!
Məni hey qınayır, elə gəl deyir!
Sıyırıb qınından Babək qılıncı,
Dönüb şaqqıldayan selə, gəl deyir.

Bizi sınağa çək, yoxla, ey babam!
Vətən, bizi hayla, el bizi hayla!
Ey doğma ocağım, ey doğma yuvam!
Gələcəm, gələcəm hayla-harayla!

Uçarıq göyərçin, tanış yerlərə,
O tanış dolaylar – tarix, əzəldir.
Aşıq Ələsgərin qəbri güləcək,
Vətənin torpağı,daşı gözəldir...

*03. 08.2000, Marneuli*

## Bu yollar...

Bu yollar nə uzun, sonu bilinməz,
Bu yollar ha yana aparır məni?
Qəlbimdən qəmli bir kədər silinməz,
Bu yollar ömürdən qoparır məni!

Qolaylar haraya sapand daşıtək,
Düşüb harayasa, kök atacağam.
Torpaqda yadigar bir daş qalacaq,
Mən isə əbədi yox olacağam!

Gəlməyəcəm dünya, sənin üzünə,
Gəlməyəcəm sənə salam verməyə!

Gəlməyəcəm dağlar, salamat qalın,
Gəlməyəcəm döşdə gülün dərməyə!

Gəlməyəcəm dəniz, arxamca ağla,
Sahildə izlərim qalmayacaqdır.
Salxım söyüdlərin sərinliyində,
Sədəfli sazım da çalmayacaqdır.

Ömrüm bitəcəkdir bir kitab kimi,
Onun vərəqini kim oxuyacaq?
Nə qədər yaşasaq bu dünyada biz,
Yenə axırımız torpaq olacaq!

*Qaqra, 12 sentyabr, 1988-ci il.*

## Anamı düşündüm

Anamı düşündüm, gözü kədərli,
Üzü qırış-qırış, oturub tənha.
Görəsən, kimləri düşünür anam?
Yoxsa ki, inamı itibmi daha.

Nə oğul görsənir, nə qız görsənir,
Hərəsi quş kimi uçub bir yana.
Bilmir ünvanını oğulun, qızın,
Bəlkə də inanmır etibarına.

Balaca Ayazın, dəcəl Ayselin,
Gözəl yanağını öpəmmir daha.
Nizami də məni unudub deyə,
Gözünün yaşını siləmmir daha.

Uzaqda ay ana, düşündüm səni,
Doğrudan tənhalıq - əzab-əziyyət!

Düşündüm atamla geçən günləri,
Demə yaşadırmış səni məhəbbət!

*Qaqra, 15 sentyabr, 1988-ci il.*

## Torpağa dönəcəm nə vaxtsa...

Torpağa dönəcəm, nə vaxtsa, qardaş,
Üstümə gələcək bir Ayaz balam!
Görən, düşünəcək necə, nə cür?
Yanımda olacaq hey qəmli anam.

Məleykəm gözünü siləcək hərdən,
Şirin xatirələr hönkürdər onu.
O qəşəng üzünə kədər çökəcək,
Geyəcək bədənə qara donunu.

İllər dolansa da nə ola biləm,
Hər gün üstümə kimlər gələcək?
Qalxıb göz yaşını əlimlə siləm,
Onda Ayazımın üzü güləcək.

Atamı sevirdim özümdən artıq,
Görüşdən doymurdum onunla hər vaxt.
Yanına gəlmişdik-üççə gün qonaq,
Fəqət, ayrı saldı bizi bu həyat!

Torpağa tapşırdıq atamı o gün,
O gün həmdəmim də bir torpaq oldu.
Bu qara torpağın üzü nə soyuq,
Atamı qohum da nə tez unutdu?

Fəqət, yaralarım qövr edir, qardaş,
Atamı unutmaq mənə çətindi.

Ürəyim kövrəlir, inləyir, qardaş,
Qarşımda bir təmiz vərəqdi indi.

Ömür karvanını çəkib getdi o,
Tək məni yalqızca qoyub getdi o.
Bu imiş həyatın namərd sonluğu,
Qələmə, kağıza qalıb ümidim,
Sahildə qanadı sınan quş təki,
Çırpınır ürəyim üzə bilmirəm.
Atamla getdiyim yolları indi,
Görəndə, görəndə dözə bilmirəm!

Torpağa dönəcəm, nə vaxtsa mən də...
Üstümə gələcək bir Ayaz balam!
Görən, düşünəcək necə, nə cür?
Yanımda olacaq hey qəmli anam...

*Qaqra, 12 sentyabr, 1988-ci il.*

## Yarımçıq şeirlər

Yollara baxıram, yarım gəlməyir,
Bir vüsal həsrəti qəlbimi deşir.
Dilim-dodağım da xoş sözlər deyir,
Bir hicran soraqlı nəğmələr qoşur.

*15.04.2001-ci il.*

Səhər-səhər o gözəli görəndə,
Qəlbim uçdu, ağlım çaşdı, ay aman!
Bu könlümün əzəl gündən həmdəmi,
Gözəl üzdü, gözəl qaşdı, ay aman!

*15.12.2000-ci il.*

Sallana-sallana gələn salatın,
Sən məni görəndə niyə üzüldün.

Gözəl əndamını göstərib yara,
Sanki bulaq idin dağdan süzüldün.

*17.11.2000-ci il.*

Yazammadım neçə dastan, şeirimi,
Deyəmmədim bu ellərə sirrimi,
Ay qoca dünyanın qoca hakimi,
Apardın ömrümü nə tez, ay hayıf!..

*17.11.2000-ci il.*
*Borçalı, Yuxarı Saral kəndi*

## Mənim Saral elim

Qumrular ötüşür, bülbüllər uçur,
Mənim Saral elim bax belə eldir.
Xəyalım quşqonmaz zirvələr gəzir,
Dilimsə, ən gözəl şirincə dildir.

Bu gözəl çəmənlər, laləzar düzlər,
İnsanı özünə cəlb edir hərdən.
Biçilib hüsnünə gözəllik donu,
Əqlimi, huşumu çıxarır sərdən.

Yığılıb gözəllər bulaq başına,
Gözümü ovlayıb nazənin sənəm.
İstərəm mən onun qələm qaşına,
Bir incə mənalı şeir söyləyəm.

Gözəllik qəlbimin kövrək simidir,
O saat dinəcək çalsan, ay gözəl.
Bu baxış ömürlük mənim bəsimdir,
Şirin xəyallara dalsan, ay gözəl.

Füsunkar meşələr, şır-şır bulaqlar,
Məni bu dünyaya bağlayan teldir.
Çağırır qoynuna məni yaylaqlar,
Gördüyüm mənzərə çiçəkdir, güldür.

Nağıla bənzəyir mənim bu ömrüm,
Bilmirəm, almanı necə bölüm mən.
Alnıma yazılıb bu eldə ölüm,
Yad yerdə, ölkədə necə ölüm mən.

Bir bahar çağında yazdım bu şeiri,
Mənim Saral elim bax belə eldir.
Qarşına çıxarsa, qoca-ixtiyar,
Onun hər kəlməsi şirincə dildir.

*2 iyun, 2001-ci il,*
*Yuxarı Saral kəndi, Borçalı*

## Bəxtim

*"Qız ağacı, qoz ağacı"*
*El məsəli*

Darvazaya ox asdım,
oğlum oldu-
Arxam oldu,
-Torpağımız
Var gətirdi.
Darvazaya
ələk asdım:
Qızım oldu,
-Qoz ağacım
Bar gətirdi.

## Anam yuxuma gəlib

Çoxdan gedib evimdən,
Anam yuxuma gəlib.
Əlində sənək dolu,
Ümman yuxuma gəlib.

Suyla çıxdı qarşıma,
Yüyürdüm mən qucmağa.
Mənim analı dünyam,
Mənim sonalı dünyam –
Qanadım yox uçmağa,
Anam yuxuma gəlib.

Hardasan, harda, anam,
Qalmayıb məndə inam.
Yanında gözəl atam,
Anam yuxuma gəlib.
Ömrümün yaraşığı,
Atam, anam harda, ah!
Ellərin yaraşığı –
Bir cüt sonam harda, ah!

Gözlərimi açanda
Gördüm yuxu imiş, ah.
Ata, anasız məni
Neyçün yaratdın, Allah!

# 9 აპრილი

ო, იმ ბრწყინვალე და იმ საშიშ დღეს,
ცხრა აპრილს,
თბილისს ჭმუნვად რომ ედგა,
დარდმა შებოჭა გულები როცა,
როცა გულების ისმოდა ფეთქვა.
ვიღაც გალობდა, ვით ჩიტი ველად,
მაგრამ გალობა ჩათავდა ვეღარ.
თავისუფლებას იმღერდა ხალხი,
თავისუფლების ისმოდა ჰიმნი.
თუმცა თოფების ამ მქუხარებით,
თითქოსდა გაწყდნენ ჩონგურის სიმნი.
ზღვას ატალღებულს მოჰგავდა ხალხი
სიმღერა ხვალინდლის იწყებდა ძერწვას,
მტრებმა არ დაინდეს მოხუცი, ბავშვი
ყური უყრუეს ათასთა ხვეწნას,
მაგრამ გმირული გაბედულებით
ბრძოლად ჩაერთვნენ ქალბატონები.
ჭაღარა დედავ, ქალო ლამაზო
გული ამაყობს თქვენი გონებით.
გულს ნაღველი მაჩნს მსოფლიოსხელა
სისხლისღვრას ზიზღი, გმობა, უარი.

შეხე საკუთარ ეზოში, კარში
ბევრი შემოსეს თეთრი სუდარით.
ტანჯვა გვაგემა წითელმა ურდომ,
ჩააქრო ბერვი მზე და სოცოცხლე.
გუშინ თითქოსდა ჩვენი ქომაგნი,
დღეს ჩვენი სისხლით ღებავდნენ ხელებს.
ხისტების კვალი სისხლიან მკერდზე
9 აპრილი ხომ ის თარიღია.
დუშმანს მგლებურად უელავს ეშვი,
მისი საკბილო კი თარიღია.
და ეს ქვეყანა მშვენებით სავსე არივდარიეს,
მოსპეს უკლებლივ.
ეტყობა ხვედრი იყო ასეთი,
ჩანს ეს გზაა თავისუფლების.
უსაზღვრო არის ჩემი სიბრაზე,
გულზე ცეცხლივით ალად მედება.
თქვენ არ მომკვდარხართ წამებულებო,
ყოველი დღე ხომ თქვენით თენდება.

9 აპრილი, 1989 წელი
ოქტაი ქაზიმოვის თარგმანი

**Nizami Məmmədzadə (Məmmədov)**

Nizami Zilli oğlu Məmmədzadə (Məmmədov) 1957-ci ilin may ayının 10-da Gürcüstanın Marneuli rayonunun Yuxarı Saral kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Mətbuatda uzun müddət səmərəli fəaliyyətinə görə Həsən bəy Zərdabi mükafatına layiq görülüb. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2008-ci ildən APA-nın Gürcüstan müxbiridir. 7 kitab müəllifidir. Hazırda Marneuli şəhərində yaşayır.

## NİZAMİ ZİLLİ OĞLU MƏMMƏDZADƏ (MƏMMƏDOV)

**Nizami Zilli oğlu Məmmədzadə (Məmmədov) 1957-ci il may ayının 10-da Gürcüstanın Marneuli rayonunun Yuxarı Saral kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 2008-ci ildən APA-nın (Azəri-Press Agentliyinin) Gürcüstan üzrə xüsusi müxbiridir.**

